# Tələsin, insanlar, şadlıq görməyə...

## Əbədiyaşar Rəşid Behbudovun əziz xatirəsi yaddaşlarda, bənzərsiz ifası ürəklərdə yaşayır



**Tiflisdə doğulub, İrəvanda sınaqdan keçib, Bakıda püxtələşib, sərhədləri aşıb, dünyanı dolaşıb məşhurlaşmaq, adı, səsi dillər əzbərinə çevrilmək, milyonların sevgisini qazanmaq yazıldı onun taleyinə. Yüz il qabaq əslən şuşalı xanəndə Məcid Behbudalı oğlu ilə Vəkilovlar nəslindən olan Firuzə xanımın növbəti övladı kimi dünyaya göz açdı. Əsrlər boyu millətimizin yaşadığı qədim Tiflisin Şeytanbazar məhəlləsində eşidildi ilk dəfə onun səsi. Kimsə nə vaxtsa belə məşhur olacağına inanmazdı o vədə. Heç atası, dövrünün tanınan xanəndəsi belə. O isə ağla gələn və gəlməyən gümanlardan daha fərqli ömür yaşadı. Nadir səsinin, sənətkarlığının sayəsində elə bir şöhrət zirvəsinə ucaldı ki, bütün zamanların əlçatmazına çevrildi.**

Maddi baxımdan çətinlik çəkən ailəsinə kömək etmək üçün 12 yaşından işləməyə başlayıb. Qarşıdakı şan-şövkətli illərdən xəbərsiz, qorxmadan, usanmadan işin ağırından yapışıb. Sonralar Rəşid Behbudov kimi məşhur çağlarında ötənləri xatırlayıb belə deyirdi: ”Boyca balaca, amma çox cəld idim. Məni nəhəng buxar qazanlarının içərisinə salır, əlimə şlanq verib qazanların ərpini təmizləməyi tapşırırdılar. Orada hərarət çox yüksək olurdu. İstidən az qala boğulurdum. Ailədə uşaqların ən kiçiyi idim, anamın işə getməsi hamıdan çox məni narahat edər, yamac aşağı onun dalınca qaçar, ağlayar, sonra saatlarla pəncərə qabağında oturub gəlişini gözləyərdim. O, xörək bişirəndə deyərdi:”Oğlum, sən bu işi görməsən də olar, ancaq öyrənsən yaxşıdır. Nə bilirsən evlənəcəyin qız hər şeyi biləcək, ya yox?”

1933-cü ildə Rəşid Dəmiryol Texnikumuna daxil olur. Təhsil aldığı müddətdə tələbə özfəaliyyət orkestrində çalışır. İrəlidəsə onu hərbi xidmət gözləyirdi. Ordu illərində hərbi ansamblın solisti olan gənc həmvətənimiz əsgər həyatıyla vidalaşdıqdan sonra Tbilisi estrada qruplarından birinə işə düzəlir. Və tezliklə bəstəkar A.Eyvazyanın rəhbərlik etdiyi Ermənistan Dövlət Caz Orkestrində solistliyə başlayır. Həmin vaxt o, eyni zamanda, Ermənistan Dövlət Opera və Balet Teatrında klassik operaların xor səhnələrində solo oxuyur. 1939-cu ildə teatrın truppası ilə birlikdə Moskvada Ermənistan incəsənəti ongünlüyündə iştirak edir. Ölkənin başının müharibəyə, müsibətə qarışdığı vaxt - 1942-ci ildə kollektivlə birgə Krım cəbhəsinə yollanır.

Növbəti ilin sonunda Bakı kinostudiyasında Üzeyir Hacıbəylinin eyniadlı operettasının motivləri əsasında çəkilən ”Arşın mal alan” filmində baş rolu ifa etmək üçün ona dəvət gəlir. Bu o zamanıydı ki, İrəvanda çalışan Rəşid Behbudov artıq müğənni kimi tanınır, sevilirdi. Gənc ifaçı təklifi qəbul edir və filmə çəkilir. 1945-ci ildə ekrana çıxan ”Arşın mal alan” qısa zamanda yalnız Azərbaycanda deyil, keçmiş Sovet İttifaqının hər yerində böyük populyarlıq qazanır. Təsadüfi deyil ki, bir il sonra film o vaxtki Stalin mükafatına (sonradan SSRİ Dövlət Mükafatı adlandırıldı - S.E.) layiq görülür. Təltif olunanların arasında Əsgər rolunun ifaçısı Rəşid Behbudov da olur.

Ecazkar səsi, səhnə məlahəti, ustalığıyla adamları heyran qoyan müğənniyə bu film böyük şöhrət gətirir. Ekran əsərinə quruluş verən Rza Təhmasib rejissor hissiyyatında yanılmamışdı. Arşınmalçı obrazı sanki Rəşidin əyninə biçilmişdi. Hər şey son dərəcə gözəl, uğurlu alınmışdı. Müğənni kinoda ilk sınaqdan üzüağ, qalibiyyətlə çıxır. Sonralar Rəşid Behbudov müsahibələrində qeyd edirdi ki, hara gedirdisə, onu ”Arşın mal alan” filminin qəhrəmanı tacir Əsgər kimi alqışlayırdılar: ”Arşın mal alan” Azərbaycan kinosunun bütün dünyada bayrağına çevrildi. Bu kino dünya ölkələrinin ekranlarını gəzdi. Çox vaxt öz konsertlərimlə filmin arxasınca getməli olurdum və Əsgər mənim ən gözəl ”vizit vərəqəm idi”.

1949-cu ildə Budapeştdə keçirilən Gənclərin və tələbələrin Ümumdünya festivalında çıxış edən Rəşid 1946-1956-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının, 1953-1960-cı illərdə fasilələrlə M.F.Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti, 1957-1959-cu illərdə Azərbaycan Dəvlət Konsert Ansamblının təşkilatçısı və rəhbəri olur. 1966-cı ildən musiqi və estrada sənətinin caz, balet, pantomim kimi müxtəlif janrlarını üzvi surətdə birləşdirən Azərbaycan Dövlət Mahnı Teatrını təşkil edir və ömrünün sonunadək orada bədii rəhbər kimi çalışır.

Qeyri-adi, gözəl və zəngin çalarlı səsə malik Rəşid Behbudov Azərbaycan hüdudlarını aşaraq keçmiş SSRİ məkanında məxsusi dəst-xəttiylə seçilən çox görkəmli musiqi xadimiydi. Ondan sonra dünyada 70-dən artıq xalqın mahnısını onların doğma dilində məharətlə ifa edən ikinci elə bir sənətkarımız yoxdur. Səsinin ahəngi qəribə həzinlik, məlahətlə qaynayıb-qarışaraq cazibəsiylə adamı ovsunlayırdı. Sənətkarlığı öz yerində, Azərbaycanı, onun təbii gözəlliklərini, adamlarını bütün varlığı ilə sevən vətəndaş idi bənzərsiz Rəşid. Doğma torpağını qarış-qarış gəzir, anasından və Vətənindən doya bilmədiyini mahnılarında məxsusi sevgi və istedadla çatdırırdı. Həmin nəğmələri Rəşidin cismani yoxluğuna baxmayaraq, eşidəndə qəribə hisslər keçirməyimizin səbəbi məhz bu qeyri-adi hünərdir. Onun yurdumuz haqqında oxuduğu mahnıları dinləyəndə sanki bu səsin qüdrəti adamın ayağını torpağa bağlayaraq ruhunu göylərə qaldırır. Vətən sevgisini bu sayaq çatdırmaq yalnız fitri istedadlara nəsib olan səadətdir.

Rəşid Behbudovu yalnız elində-obasında sevmirdilər. Sənətiylə dil, millət, din, sərhədlə bağlı bütün təsəvvürləri aşan müğənnini hər yerdə məmnunluqla dinləyirdilər. Təsadüfi deyil ki, bir vaxtlar Azərbaycanı bir neftə, bir də ustadın səsinə görə tanıyırdılar. O, bu səslə ölkələr dolaşmışdı. Keçmiş SSRİ-nin bütün guşələrindən savayı, güzarı Albaniya, Bolqarıstan, ərəb ölkələri, Hindistan, Çin, Finlandiya, İran, İraq, Türkiyə, Çili, Argentina, Belçika, İtaliya, Misir, ABŞ, Yaponiya və s. yerlərə düşmüşdü. Bu ölkələrin əksəriyyətinə dəfələrlə qastrol səfərləri olmuşdu. Nəğmələrini ərməğan edərək öz yurduna ürəyi dolu sevgilərlə qayıdırdı həmişə. Burdan gedəndə də, Vətənə dönəndə də dilinin şah kəlməsi Azərbaycanıydı.

*Yurdum, yuvam, məskənimsən, Azərbaycanım,*
*Anam, doğma Vətənimsən, Azərbaycanım!*

Neçə-neçə musiqi kollektivində çalışan Rəşid Behbudov yarım əsr qabaq Dövlət Mahnı Teatrını yaratdı. Və bununla da Azərbaycan musiqi və estrada sənətinin müxtəlif janrlarını birləşdirərək incəsənətimizdə yeni bir mərhələnin əsasını qoydu. Ölməz sənətkarın yadigarı sayılan həmin teatr bu gün böyük müğənninin adını daşıyır. Özündən sonra gələnləri düşünən böyük ürək sahibinin ərsəyə gətirdiyi sənət məbədində bu gün onun mənəvi varisləri fəaliyyət göstərirlər.

R.Behbudov müxtəlif janır və üslublarda yazılmış bəstəkar mahnı və romanslarından, klassik vokal nümunələri və opera ariyalarından başqa, Azərbaycan xalq mahnılarının da misilsiz ifaçısı idi. Görünür, xalq musiqisi xəzinəsinə qəlbən bağlılıq ona dövrünün görkəmli xanəndəsi olmuş atası Məcid Behbudovdan irsən keçmişdi. Klassik xanəndəlik sənətinin qəliblərinə sığmadan, xalq mahnılarını müasir ifaçılıq üslubunda, musiqi dilinin ən dərin qatlarında gizlənmiş incəlikləri, məna çalarlarını üzə çıxararaq onlara yeni ruh, nəfəs qatıb təqdim edirdi. Buna görə həm xalq, həm də bəstəkar mahnılarının populyarlaşmasında Rəşid Behbudovun xidmətləri əvəzsiz hesab olunur. Mahnıları sadəcə ifa etmir, öz möhürünü vurur, onlara əbədiyaşarlıq pasportu verirdi o. Eləcə bircə ifanı - böyük şövq və məhəbbətlə oxuduğu ”Ana” (musiqisi Cahangir Cahangirovun, sözləri İslam Səfərlinin- S.E.) mahnısını xatırlamaq yetər. Rəşidin sənət cazibəsinin təsirindən çıxmaq, yaşadığın halı unutmaq olmur. Ürək çırpıntılarından doğan ifa dinləyicinin bütün varlığını sarır, səs və sözün möcüzəsiylə baş-başa qoyur



*Gözümün nuru, canım ana,*
*Böyütdün sən məni yana-yana.*
*Saçının ağına, qarasına qurbanam,*
*Könlünün o həzin laylasına qurbanam!*

”Aman ovçu”, ”Ağacda leylək”, ”Gözəlim sənsən”, ”Küçələrə su səpmişəm”, ”Ay nənə”, ”Ləbuləb”, ”Evləri var xana-xana”, ”Ay laçın” kimi xalq mahnıları onun ifasında özgə hüsndə, dad-tamda adamı sehrləyir.

Rəşid Behbudov canı, qanı, bütün varlığı ilə xalqına, Vətəninə bağlı sənətkar idi. O, dünyanın ən məşhur teatrlarının səhnələrində, konsert salonlarında Azərbaycan musiqisini sevə-sevə, sevdirə-sevdirə təbliğ və tərənnüm etmiş, hər dəfə də anşlaqla, sürəkli tamaşaçı alqışları ilə qarşılanmışdır. Planetin, demək olar ki, hər guşəsində, ən böyük şəhərlərin küçələrini Azərbaycan xəritəsinin fonunda qollarını qartal kimi açıb pərvazlanmaq istəyən Rəşidin afişaları bəzəyirdi. Rəşid Behbudov milli köklərə nə qədər bağlı vətənpərvər sənətkar olsa da, bir o qədər beynəlmiləlçi idi. Görəsən, tarixdə ayrı-ayrı xalqların dillərində Rəşid qədər mahnılar ifa edən ikinci bir müğənni olub? Onun repertuarında dünyanın 70-dən çox xalqının dillərində mahnılar daxiliydi. O bu mahnılara sözün həqiqi mənasında həyat vermişdi. İfası dinləyiciləri ahənruba kimi özünə çəkir, valeh edirdi. Kinoaktyor yaradıcılığı da maraqlıydı görkəmli sənətkarın. Dörd bədii filmdə - ”Arşın mal alan” (1945), ”Doğma xalqıma”(1954), ”Bəxtiyar”(1955), və ”1001-ci qastrol”da (1974) baş rolları məharətlə oynamışdı. 30-dək sənədli filmdə və kinojurnallarda ifası da onun ekran yaradıcılığına daxildir. Beləcə, hələ gənc ikən Rəşid Behbudovun yaratdığı kino obrazları yalnız onun səsinə görə deyil, həm də yüksək artistlik məharətilə bacarığına görə neçə-neçə konorejissorun diqqətini cəlb etmişdi. Bu rollar kino sənətimizin şanlı səhifələrinə çevrilib.

Yeri gəlmişkən, ”Bəxtiyar” filmindəki Bəxtiyar obrazı da sanki müğənninin öz bioqrafiyasıdır. Bu filmdə, eləcə də ”1001-ci qastrol” ekran əsərində Rəşid Behbudovun ürəkləri riqqətə gətirən mahnıları və aktyor kimi yaratdığı rolların şirinliyi bizə yadigar qalıb. Həmin mahnılar sonralar dillər əzbəri olub, müğənnilərimizin repertuarını bəzəyib. Ustadın baş rolda çəkildiyi birinci filmə - ”Arşın mal alan”a dünyanın 60-dək ölkəsində sevilə-sevilə baxılmasısa ayrıca söhbət mövzusudur.

Rəşid Behbudov Azərbaycan musiqisində yeni bir dövr yaratdı. O, harada olursa-olsun Azərbaycanı vəsf edirdi. Repertuarı doğma Azərbaycan, onun əsrarəngiz gözəlliyi haqqında xalq və müəllif mahnıları ilə zəngin idi. ”Azərbaycan”, ”Qalalıyam”, ”Lalələr”, ”Qızıl üzük”, ”Sevgilim”, ”Ey Vətən” və s. onlarla mahnısı bu gün də sevilə-sevilə dinlənilir.

Rəşid Behbudov saysız-hesabsız beynəlxalq, ümumittifaq və respublika dövlət mükafatlarına və fəxri adlara layiq görüldü, ən mötəbər beynəlxalq festivalların qalibi oldu. İctimai xadim, bənzərsiz sənətkar kimi adını tarixə yazdırdı. Dövlət mükafatları laureatı, Lenin, Qırmızı Əmək Bayrağı, Xalqlar Dostluğu ordenləri, 1959-cu ildə sənətinin dəyəri kimi SSRİ xalq artisti fəxri adı. Amma siyahı bununla bitmir. 1980-cı ildə dahi ifaçı Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görülür. O, SSRİ-də müğənnilər arasında bu mükafatla təltif olunan ilk sənətkar idi. Eyni zamanda Dağıstanın xalq artisti, Gürcüstanın əməkdar incəsənət xadimi fəxri adlarıyla təltif edilmiş Rəşid Behbudovun həyatda ən böyük mükafatısa doğma xalqının ona olan tükənməz və əbədi məhəbbətiydi.

Rəşid Behbudov Hindistana səfəri haqqında ”Uzaq Hindistanda” kitabını yazmışdı bir vaxtlar. O Hindistandan bəhs etmişdi ki, bu günədək sirli-soraqlı qalan ölümün bir ucu söylənənlərə görə gedib ora çıxır. Doğrudur, bu söhbətlər hələ də təsdiqini tapmayıb, amma şübhələr, gümanlar illərdir səngimək bilmir...

Xatirəsi yaddaşlarda, ifası ürəklərdə yaşayan Rəşid Behbudovun yüz yaşı tamamdır. ”Azərbaycanım”, ”Alagöz”, ”Bakı”, ”Sənə də qalmaz”, ”Ayrılıq”, ”Zibeydə”, ”Gəlmədin” kimi mahnılara yaşarılıq möhürünü vuran Rəşidin. Əvəzsiz ustadın, ölməz dahinin.

*Tələsin, insanlar, şadlıq görməyə,*
*Qəm-qüssə görməyə gecikin bir az -*

deyən, qayğıkeş, millətsevər Vətən oğlunun

**Seymur Elsevər**
**seymur_elsever@yahoo.com**